**AUDİT 2024, 1 (43), səh. 49-63.**
**AUDIT 2024, 1 (43), pp. 49-63.**
**АУДИТ 2024, 1 (43), стр. 49-63.**

**DOI:10.59610/bbu1.2024.1.4**

*Müslümov Səlim Yanvar oğlu,*
*iqtisad elmləri doktoru, professor,*
*Milli Aviasiya Akademiyasının*
*"İqtisadiyyat" kafedrasının müdiri,*
*E-mail: smuslumov@naa.edu.az;*

*Mirzəyev Fuad Mürvət oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Milli Aviasiya Akademiyasının*
*"Menecment" kafedrasının dosenti,*
*E-mail: fmirzayev@naa.edu.az;*
*© Müslümov S.Y., Mirzəyev F.M., 2024*

**UOT - 332.01; 332.05; 339.9**

# DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞI VƏ ONUN SOSİAL-İQTİSADİ PROBLEMLƏRİN HƏLLİNDƏ ROLU: DÜNYA TƏCRÜBƏSİNİN TƏHLİLİ

## X Ü L A S Ə

Son 20 ildə ölkəmizdə həyata keçirilmiş kompleks iqtisadı islahatlar, eləcə də müasir iqtisadi münasibətlərin strukturunda baş vermiş dəyişikliklər bu münasibətlərdə dövlətin rolunun da xeyli dərəcədə dəyişilməsi ilə nəticələnmişdir. Hazırda fərqli mülkiyyət formalarının birlikdə yaratdığı iqtisadi proseslərdə dövlətin rolunu, funksiya və metodlarını daha dəqiq müəyyən edə biləcək yeni, müasir konseptual iqtisadi münasibətlər sisteminə və ya yanaşmalara ehtiyac yaranmışdır. Bu münasibətlərin bir istiqaməti də dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqini nəzərdə tutur. Məqalə dövlət-özəl tərəfdaşlığı modelinin mahiyyəti və bu modelin tətbiqində dünya təcrübəsinin təhlilinə həsr edilmişdir.

**Tədqiqatın məqsədi** – dövlət-özəl tərəfdaşlığı modelinin elmi-metodoloji əsaslarını tədqiq etmək və bu modelin tətbiqində dünya təcrübəsinin statistik təhlilini həyata keçirməkdir.

**Tədqiqatın metodologiyası** – analiz və sintez, statistik və müqayisəli təhlil, kəmiyyət analizi.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – dövlət-özəl tərəfdaşlığı modelinin iqtisadi əhəmiyyətinin və tətbiqi üzrə dünya təcrübəsinin təhlili perspektivdə Azərbaycanda bu modelin səmərəli tətbiq edilə biləcəyi təsərrüfat sahələrinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynaya bilər.

**Tədqiqatın nəticələri** – dövlət-özəl tərəfdaşlığı modelinin mahiyyəti müəyyənləşdirilmiş və onun tətbiqinin dünya təcrübəsi müqayisəli təhlil olunmuşdur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – çoxsaylı mənbələrdə öz əksini tapmış tədqiqat işlərinin təhlili əsasında dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqinin dünya təcrübəsinin riyazi-statistik analizi ilk dəfə sistemləşdirilmiş şəkildə təqdim edilmişdir.

**Açar sözlər:** dövlət-özəl tərəfdaşlığı (Public-Private Partnership (PPP)), tender, özəlləşdirmə, SEM, Partnerschaften Deutschland, The National Council for Public-Private Partnerships.

AUDİT 2024, 1 (43), səh. 49-63.
AUDIT 2024, 1 (43), pp. 49-63.
АУДИТ 2024, 1 (43), стр. 49-63.

## G İ R İ Ş

Son dövrlərin beynəlxalq iqtisadi təcrübəsinə baxdıqda, iqtisadi resurs bazasının genişləndiyini, eyni zamanda bu bazadan resursların daha effektiv cəlb edilməsi hesabına iqtisadi artımın sürətləndiyini və dövlət (ictimai sektor) idarəetməsinin səmərəliliyinin yüksəldilməsinin mexanizmlərindən biri kimi dövlət-özəl tərəfdaşlığı modelinin artan templərlə tətbiqini müşahidə etmək mümkündür.

Xüsusilə regionlarda icra və yerli özünüidarəetmə (bələdiyyə) orqanları vasitəsilə səfərbər olunan dövlət büdcəsi vəsaitlərinin həcminin ildən-ilə daha da məhdud xarakter daşıması müvafiq ərazi vahidləri səviyyəsində fiziki və mənəvi aşınmaya məruz qalmış infrastruktur obyektlərinin yenilənməsi və ya modernləşdirilməsinin, eyni zamanda müvafiq region üçün prioritet hesab edilən təsərrüfat sahələrinin inkişafının sürətləndirilməsinin qarşısını alan başlıca problemlərdən biridir. Yerli icra və özünüidarəetmə orqanlarının büdcə məhdudiyyətləri, regionlarda reallaşdırılan investisiya layihələrinə dövlət büdcəsindən istiqamətləndirilən transfertlərin həcmində obyektiv səbəblərdən müşahidə edilən azalmalar və paralel olaraq artıq istismara yararsız hala gəlmiş infrastruktur obyektlərinin yenilənməsinə və ya modernləşdirilməsinə ehtiyacın labüdlüyü sadalanan problemlərin həllini təmin edəcək yeni büdcədənkənar (qeyri-büdcə) maliyyələşmə mənbələrinin axtarışı və tətbiqini şərtləndirən əsas amillərdir. Beynəlxalq təcrübənin təhlili göstərir ki, bu problemlərin həlli üsulları içərisində dövlət-özəl tərəfdaşlığı mexanizmi mühüm yer tutur. Həmin təcrübədən irəli gələrək qeyd etmək olar ki, dövlət-özəl tərəfdaşlığı mexanizminin tətbiqi hesabına investisiya layihələrinin reallaşdırılması fərqli təsərrüfat sahələri və müxtəlif regionların inkişafı üçün gərəkən həcmdə maliyyə resurslarının səfərbər olunmasına və nəticədə, həmin sahənin, regionun və ümumilikdə ölkənin iqtisadi inkişafına geniş imkanlar açır.

Həmçinin onu da göstərmək lazımdır ki, dövlət-özəl tərəfdaşlığı mexanizmlərindən istifadə özəl biznes üçün iqtisadi baxımdan maraq kəsb etməyən sahələrdə ictimai əhəmiyyətli layihələrin reallaşdırılmasına, eyni zamanda dövlət institutları ilə müqayisədə daha səmərəli nəticələr əldə etmək potensialına sahib olan özəl biznesin iştirakı hesabına həmin layihələrin idarə edilməsinin optimallaşdırmasına səbəb olur.

Beynəlxalq iqtisadi-hüquqi ədəbiyyatın təhlili "dövlət-özəl tərəfdaşlığı" ifadəsinin ingilis dilindəki "Public-Private Partnership (PPP)" ifadəsinin dilimizə tərcüməsi olduğunu göstərir. Bu zaman "Public" sözü "dövlət" kimi tərcümə edilir ki, bu da öz növbəsində qərb iqtisadi reallığından irəli gələn bu kateqoriyanın əhəmiyyətini dar çərçivəyə salır. Bununla belə, "dövlət-özəl tərəfdaşlığı" kateqoriyası çərçivəsindəki "dövlət" (Public) sözü təkcə hökumət funksiyalarını reallaşdıran təşkilatların cəmi kimi deyil, daha geniş mənada nəzərdə tutulur. Belə ki, həmin kateqoriya çərçivəsində "dövlət" özündə ümummilli, regional və bələdiyyə səviyyəsində idarəetmənin bütün həlqələrini birləşdirən, ictimai hakimiyyətin vahid subyekti kimi çıxış edir. Eyni zamanda, "Public" sözünün arxasında öz səlahiyyətləri daxilində fəaliyyət göstərən və əksər hallarda qeyri-rəsmi (qeyri-formal) status daşımasına baxmayaraq ictimai sektorun inkişafında olduqca əhəmiyyətli rol oynayan institutsional təşkilatlar dayanır. Artıq məlum olduğu kimi, "dövlət-özəl tərəfdaşlığı" ifadəsində dövlət sözü birinci sırada durur

AUDİT 2024, 1 (43), səh. 49-63.
AUDIT 2024, 1 (43), pp. 49-63.
АУДИТ 2024, 1 (43), стр. 49-63.

ki, bunun da başlıca səbəbi bu növ tərəfdaşlıq layihələrinin əksəriyyətinin təşəbbüskarı kimi dövlətin çıxış etməsidir [1].

Fikrimizcə, dövlət-özəl tərəfdaşlığı məfhumuna ən ümumiləşdirilmiş tərifi Dünya Bankı verir: "Dövlət-özəl tərəfdaşlığı ictimai sektorla özəl sektor arasında istehsal və xidmət proseslərinin reallaşdırılmasına dair müştərək əməkdaşlıq razılaşmasıdır ki, bu razılaşma öz növbəsində ictimai infrastruktur obyektlərinə əlavə xüsusi kapitalın (investisiyaların) cəlb edilməsinə və bundan daha da vacibi, büdcə maliyyələşdirilməsinin səmərəliliyinin artırılmasına imkan vermiş olur" [2]. Fikrimizcə, bu yanaşmada "dövlət-özəl tərəfdaşlığı" kateqoriyasının iki ən vacib xüsusiyyəti müəyyənləşdirilir: birincisi, dövlət-özəl tərəfdaşlığına özəl sektorun ictimai infrastruktur layihələrinin reallaşdırılmasına cəlb edilməsi üsulu, ikincisi isə onun dövlət büdcəsinə olan "təzyiq"lərin minimallaşdırılması aləti kimi baxılmasıdır.

**1. Azərbaycanda dövlət-özəl tərəfdaşlığı münasibətlərinin tənzimlənməsi vəziyyəti**

Azərbaycanda dövlət-özəl tərəfdaşlığı münasibətləri ilkin olaraq "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının 15.03.2016-cı il tarixli Qanunu, Azərbaycan Respublikası Prezidentinin 07.12.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik - idarə et - təhvil ver" modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası və Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının 22.05.2017-ci il tarixli Q-06 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tik-idarə et-təhvil ver" modeli çərçivəsində bağlanılmış müqavilələr üzrə əməkdaşlıq yardımının və qarantiya öhdəliyinin həcminin hesablanması metodikası barədə Qayda" ilə tənzimlənirdi.

2022-ci ildə "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən dərhal sonra yuxarıda nəzərdən keçirilmiş normativ-hüquqi aktlar qüvvədən düşdü və ölkəmizdə dövlət-özəl tərəfdaşlığı çərçivəsində bağlanılmış bütün müqavilələr bu Qanun, eləcə də Mülki Məcəllə və "İnvestisiya fəaliyyəti haqqında" Qanunun müddəaları ilə tənzimlənməyə başlandı.

"Dövlət-özəl tərəfdaşlığı haqqında" Qanunda dövlət-özəl tərəfdaşlığı dövlət xidmətlərinin göstərilməsinə, eləcə də həmin xidmətlərin göstərilməsini təmin edəcək infrastrukturun yaradılması və idarə edilməsinə dair ikitərəfli müqavilə əsasında dövlətlə özəl tərəfdaşın müştərək fəaliyyəti olaraq təsbit edilmişdir [3].

**2. Dövlət-özəl tərəfdaşlığı mexanizminin prinsipləri və məqsədi**

İstənilən iqtisadi kateqoriyanın mahiyyəti və əhəmiyyətini təmin edən prinsiplər olduğu kimi, dövlət-özəl tərəfdaşlığı kateqoriyasının da özünəməxsus prinsipləri mövcudur. Bu prinsiplər özəl biznes üçün ənənəvi hesab edilən maksimum mənfəətin əldə edilməsinə yönələn prinsiplərdən fərqlidir. Bir çox xarici ədəbiyyatın təhlili nəticəsində dövlət-özəl tərəfdaşlığının əsas prinsiplərini ümumiləşdirilmiş halda şəkil 1-də nəzərdən keçirək.

AUDİT 2024, 1 (43), səh. 49-63.
AUDIT 2024, 1 (43), pp. 49-63.
АУДИТ 2024, 1 (43), стр. 49-63.




***Şəkil 1. Dövlət-özəl tərəfdaşlığının prinsipləri***

Dövlət-özəl tərəfdaşlığı mexanizminin tətbiqində başlıca məqsəd dövlət büdcəsi vəsaitlərindən maliyyələşdirilən ictimai xidmətlərin büdcədənkənar mənbələrdən cəlb edilmiş investisiyalar hesabına həm keyfiyyətinin, həm də həcminin artırılması nəticəsində konkret regionun (təsərrüfat zonasının) dinamik sosial-iqtisadi inkişafına nail olunmasıdır. Bu məqsədə bir sistem kimi yanaşdıqda, həmin sistemin özündə aşağıda sadalanan üç qarşılıqlı əlaqədə olan elementi birləşdirdiyini görmək mümkündür:

1) infrastruktur obyektlərinə büdcədənkənar mənbələrdən əlavə investisiya yatırımlarının təmin edilməsi və eyni zamanda ictimai (dövlət) sektorun göstərdiyi xidmətlərin keyfiyyətinin yüksəldilməsi hesabına konkret regionun (təsərrüfat zonasının) sosial-iqtisadi inkişaf templərinin sürətləndiriməsi;

2) maliyyə vəsaitlərinin uzunmüddətli dövr üçün bölüşdürülməsi nəticəsində qısamüddətli dövrdə büdcə vəsaitlərinə qənaət olunması;

3) idarəetmə proseslərinə özəl sektorun cəlb edilməsi hesabına büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin yüksəldilməsi.

**3. Dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqində dünya təcrübəsi:** riyazi-statistik təhlil.

Beynəlxalq təcrübənin təhlili göstərir ki, dövlət-özəl tərəfdaşlığı modelinin ən çox tətbiq edildiyi ölkələr Avropa ölkələri, xüsusilə də Böyük Britaniyadır. Belə ki, 1990-2010-cu illərdə Avropa ölkələrində tamamlanmış dövlət-özəl tərəfdaşlığı layihələrinin 65%-i Böyük Britaniyanın payına düşür. Şəkil 2-də 2013-2022-ci illər ərzində Avropa ölkələrində reallaşdırılmış dövlət-özəl tərəfdaşlığı layihələrinin dəyər və say ifadəsində statistik təhlili öz əksini tapmışdır [4].

**AUDİT 2024, 1 (43), səh. 49-63.**
**AUDIT 2024, 1 (43), pp. 49-63.**
**АУДИТ 2024, 1 (43), стр. 49-63.**




***Şəkil 2. 2013-2022-ci illərdə Avropa ölkələrində reallaşdırılmış dövlət-özəl tərəfdaşlığı layihələrinin dəyəri və sayı***

Şəkil 2-dən göründüyü kimi, nəzərdən keçirilən dövrdə dövlət-özəl tərəfdaşlığı layihələrinin həm say, həm də dəyər ifadəsində dinamikasında müəyyən enmə müşahidə edilmişdir. Xüsusilə bu neqativ tendensiya 2020-2021-ci illərdə özünü daha kəskin biruzə verir ki, bu da həmin dövrdə “COVİD-19” pandemiyasının iqtisadi fəsadlarının mövcudluğu ilə əlaqələndirilə bilər.

Qeyd etmək lazımdır ki, 2022-ci ildə başa çatdırılmış dövlət-özəl tərəfdaşlığı layihələrinin sayı əvvəlki illə müqayisədə artaraq 44-dən 45-ə çatmışdır. Həmçinin, 2022-ci ildə Avropa ölkələrində reallaşdırılmış dövlət-özəl tərəfdaşlığı layihələrinin orta əməliyyat dəyəri 217 milyon avroya (2021-ci ildə bu rəqəm 190 milyon avro olmuşdur) qədər yüksəlmişdir. 2022-ci ildə Avropada reallaşdırılmış, ümumi dəyəri 4,25 milyard avro olan üç ən böyük dövlət-özəl tərəfdaşlığı layihəsi haqqında aşağıdakılardır [4]:

– Antalya aeroport konsessiyası (Türkiyə) – dəyəri 1,8 milyard avro;
– GEGELOG Fransa hərbi yaşayış kompleksinin tikintisi (Fransa) – dəyəri 1,4 milyard avro;
– Lamaca liman və yaxtklubun yenidənqurma layihəsi (Kipr) – dəyəri 1,0 milyard avro.

Şəkil 3-də 2022-ci ildə Avropada reallaşdırılmış dövlət-özəl tərəfdaşlığı layihələrinin həm say, həm də dəyər ifadəsində statistik nəticələri öz əksini tapmışdır [4].




***Səkil 3. 2022-ci ildə Avropa ölkələrində icra edilmiş dövlət-özəl tərəfdaşlığı layihələrinin ölkələr üzrə dəyər və sayı bölgüsü***

**AUDİT 2024, 1 (43), səh. 49-63.**
**AUDIT 2024, 1 (43), pp. 49-63.**
**АУДИТ 2024, 1 (43), стр. 49-63.**

Şəkil 3-dən göründüyü kimi, 2022-ci ildə istər ümumi dəyər ifadəsində, istərsə də say etibarilə ən çox dövlət-özəl tərəfdaşlığı layihələri Fransada reallaşdırılmışdır. 2,0 milyard avro ilə (2021-ci ildə bu rəqəm 1,4 milyard avro olmuşdur) ikinci ən böyük dəyər həcminə sahib olan dövlət-özəl tərəfdaşlığı layihələri Türkiyədə reallaşdırılmışdır. Almaniya isə reallaşdırılmış dövlət-özəl tərəfdaşlığı layihələrinin sayına görə (4 layihə) ikinci yeri tutmuşdur. Bir məqamı da qeyd etmək lazımdır ki, 2022-ci ildə Avropada 9 ölkə iki, 15 ölkə isə bir dövlət-özəl tərəfdaşlığı layihəsi reallaşdırmışdır [4].

Ümumilikdə son 5 ildə Avropa ölkələri sırasından Fransa, Almaniya və Birləşmiş Krallıq reallaşdırımış dövlət-özəl tərəfdaşlığı layihələrinin sayına görə lider mövqeləri tuturlar [4].

2022-ci ildə Avropa ölkələrində icra edilmiş dövlət-özəl tərəfdaşlığı layihələrinin iqtisadi sahələr üzrə təsnifatını nəzərdən keçirsək, nəqliyyat sistemində reallaşdırılmış layihələrin üstünlük təşkil etdiyini görərik. Belə ki, 2022-ci ildə nəqliyyat sistemində ümumi dəyəri 5,2 milyard avro olan 17 layihə reallaşdırılmışdır. İkinci yerdə ətraf mühitin mühafizəsi, üçüncü yerdə isə təhsil sektorlarında icra edilmiş dövlət-özəl tərəfdaşlığı layihələri durur (şəkil 4) [4].




***Şəkil 4. 2022-ci ildə Avropa ölkələrində icra edilmiş dövlət-özəl tərəfdaşlığı layihələrinin iqtisadi sahələr üzrə dəyər və say bölgüsü***

Avropa ölkələrində icra edilmiş dövlət-özəl tərəfdaşlığı layihələrinin ən böyük investorlarından biri Avropa İnvestisiya Bankıdır. Bu maliyyə institutu 2022-ci ildə 4 dövlət-özəl tərəfdaşlığı layihəsinə ümumilikdə 1 milyard avroya yaxın maliyyə vəsait yatırmışdır. 1990-2022-ci illər ərzində Avropa İnvestisiya Bankı ümumilikdə 268 dövlət-özəl tərəfdaşlığı layihəsinin maliyyə təminatçısı kimi çıxış etmişdir. Müvafiq layihələrin qeyd edilən illər üzrə sayı və onlara qoyulmuş investisiyaların həcmi şəkil 5-də öz göstərilmişdir [5].

**AUDİT 2024, 1 (43), səh. 49-63.**
**AUDIT 2024, 1 (43), pp. 49-63.**
**АУДИТ 2024, 1 (43), стр. 49-63.**




***Şəkil 5. 1990-2022-ci illərdə Avropa İnvestisiya Bankı tərəfindən maliyyələşdirilmiş dövlət-özəl tərəfdaşlığı layihələrinin illər üzrə dəyər və say bölgüsü***

Xüsusilə qeyd edilməlidir ki, Avropa ölkələrində nəqliyyat sisteminin mühüm həlqəsi olan boru kəməri nəqliyyatı sahəsində də dövlət-özəl tərəfdaşlığı mexanizmlərindən istifadə edilərək çoxsaylı layihələr reallaşdırılmışdır. Şəkil 6-dan göründüyü kimi, boru kəməri nəqliyyatı sahəsində hazırda davam etməkdə olan dövlət-özəl tərəfdaşlığı layihələrinin sayına görə birinci yerdə Fransa (50 layihə), ikinci yerdə İtaliya (32 layihə), üçüncü yerdə isə Yunanıstan (28 layihə) durur [4].




***Şəkil 6. Avropada boru kəməri nəqliyyatı sektorunda davam edən dövlət-özəl tərəfdaşlığı layihələrinin ölkələr üzrə say bölgüsü***

**AUDİT 2024, 1 (43), səh. 49-63.**
**AUDIT 2024, 1 (43), pp. 49-63.**
**АУДИТ 2024, 1 (43), стр. 49-63.**

2018-2022-ci illərdə Avropada reallaşdırılmış dövlət-özəl tərəfdaşlığı layihələrinin istər say baxımından, istərsə də dəyər ifadəsində iqtisadi sahələr üzrə bölgüsünə nəzər yetirdikdə, nəqliyyat layihələrinin böyük fərqlə önə çıxdığının şahidi oluruq (şəkil 7) [4].




***Şəkil 7. 2018-2022-ci illərdə Avropa ölkələrində icra edilmiş dövlət-özəl tərəfdaşlığı layihələrinin iqtisadi sahələr üzrə sayının və dəyərinin dinamikası***

Təhlillər və ekspert rəyləri belə düşünməyə əsas verir ki, 2000-ci illərdən etibarən Böyük Britaniyadan sonra dövlət-özəl tərəfdaşlığı layihələrinin reallaşdırılmasında inkişaf etmiş mühitə sahib ikinci ölkə İrlandiyadır. İrlandiyada dövlət-özəl tərəfdaşlığı layihələri mərkəzləşmiş qaydada Maliyyə Nazirliyi tərəfindən koordinasiya olunur. Bu ölkədə dövlət-özəl tərəfdaşlığı layihələrinin əksəriyyəti aşağıdakı üç istiqaməti əhatə edir [6]:

– "Gələcəyin zavodları"(«Factories of the Future») – emal sənayesi müəssisələrinin tikintisi;

– Bina və tikililərdə enerjiyə qənaət («Energy-efficient Buildings») – alternativ enerji mənbələri üzrə tikinti;

– "Yaşıl" avtomobillər («Green Cars») – ekoloji elektromobil sənayesi.

Yaponiyada da son 10 ildə dövlət-özəl tərəfdaşlığı ciddi inkişaf etmişdir. Bu inkişafın əsas səbəbi 2006-cı ildə Yaponiya parlamenti tərəfindən dövlət xidmətlərinin göstərilməsində islahatlara dair qanunun qəbulu olmuşdur. Bu qanunda subyektlərinin həm dövlət, həm də özəl müəssisələrin olduğu "tenderlər"in təşkil edilməsi qaydaları müəyyənləşdirilmişdir. Tenderin lkin mərhələsində iştirakçılar, eləcə də özəl müəssisələr tərəfindən göstəriləcək hər bir xidmət üzrə təkliflər ətraflı təhlil olunur, daha sonra qalib müəssisələrlə "bazar sınaqları" şərtlərilə müddətli müqavilələr bağlanır. "Sınaq müddəti" bitdikdən sonra özəl müəssisənin fəaliyyətinin nəticələrinin səmərəliliyi qiymətləndirilir və bu nəticələr səmərəli olduğu halda, müvafiq biznes növünün tamamən özəl sektora verilməsi barədə qərar qəbul edilir [7].

Fransada dövlət-özəl tərəfdaşlığı mexanizmlərini nəzərdən keçirdikdə, onun özünəməxsus xüsusiyyətlərinin olduğunu görürük. Belə ki, Fransada özəl investorları ictimai (dövlət) sektorun layihələrinə cəlb etmək üçün dövlət "qarışıq iqtisadi icmalar" (Societe d'Economie Mixte, SEM)

AUDİT 2024, 1 (43), səh. 49-63.
AUDIT 2024, 1 (43), pp. 49-63.
АУДИТ 2024, 1 (43), стр. 49-63.

adlandırılan birliklər yaradır. Bu birliklər faktiki olaraq birgə müəssisələr hesab edilir və onların yaradılması zamanı dövlətin və ya bələdiyyələrin həmin birliklərin nizamnamə kapitalındakı payının 50%-dən 85%-ə qədər olması məcburi şərtdir.

"Qarışıq iqtisadi icma"ların - SEM-lərin aşağıdakı səlahiyyətləri vardır:

– tikinti və yenidənqurma sahəsində fəaliyyət göstərmək;
– sənayenin müxtəlif sahələrini idarə etmək;
– ictimai xidmətlərin göstərilməsi məqsədilə onlara ötürülmüş funksiyaları reallaşdırmaq.

SEM mexanizminin digər fərqli xüsusiyyəti odur ki, bu mexanizmin tətbiqi zamanı özəl kapitalın ərazi məhdudiyyəti mövcud deyildir. Layihənin icrası çərçivəsində qurulan birgə müəssisənin təsisçiləri kimi region və ya bələdiyyə ərazi vahidindən kənarda olan investorlar da çıxış edə bilərlər. Müvafiq yanaşma hesabına milli müəssisələr öz fəaliyyətində dövlət-özəl tərəfdaşlığı mexanizmlərini tətbiq edən qeyri-rezident müəssisələr (investorlar) qarşısında lider mövqeyə sahibdirlər.

Almaniyada dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin inkişafının əsasında federal səviyyədə bu kateqoriyaya çoxsahəli dəstək mərkəzinin yaradılması durur. Müvafiq mərkəz 2008-ci ildə Federal Maliyyə, Nəqliyyat və Tikinti Nazirliklərinin tabeçiliyində məsləhətçi mərkəz olaraq (Partnerschaften Deutschland) təsis edilmişdir. Məsləhətçi mərkəzin fəaliyyəti aşağıdakı istiqamətləri əhatə edir [9]:

1) Layihənin seqmenti istiqaməti. Bu istiqamət dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin tətbiqi ilə reallaşdırılan konkret layihələrin hazırlanması, təşkili və idarə olunmasını nəzərdə tutur.

2) Məsləhət seqmenti istiqaməti. Məsləhətçi mərkəz federal və yerli hakimiyyət orqanlarına dövlət-özəl tərəfdaşlığı layihələrinin reallaşdırılması və potensial investorların bu layihələrə cəlb olunması üzrə məsləhət xidmətləri təqdim edir. Bu zaman, adətən, məsləhətçi mərkəz dövlət-özəl tərəfdaşlığı layihəsinin uğurluluq dərəcəsini və onun konkret idarəetmə səviyyələrində icra imkanlarını qiymətləndirən müstəqil ekspert kimi çıxış edir.

3) Elmi-metodoloji təminat seqmenti istiqaməti. Məsləhətçi mərkəz dövlət-özəl tərəfdaşlığı sektorunda yeni tendensiyaların, innovativ yanaşmaların təhlilini həyata keçirərək hər bir layihənin özünəməxsus xüsusiyyətləri nəzərə alınmaq şərtilə fərqli dövlət-özəl tərəfdaşlığı modelləri sırasından uyğun olanının tətbiq edilməsinə dair elmi-metodik göstərişlər hazırlayır.

Almaniyada əsasən aşağıda göstərilən dövlət-özəl tərəfdaşlığı modellərindən istifadə olunur:

1) Ötürmə modeli (model E). Bu modelin tətbiq edilməsi zamanı özəl tərəfdaş onun sahib olduğu torpaq sahəsində özünün layihələndirmə, tikinti və maliyyələşdirməsi əsasında yerinə yetirdiyi layihəni, məsələn, tikilmiş daşınmaz əmlakı sonrakı istifadə məqsədilə dövlətə təhvil verir. Bu zaman həmin torpaq sahəsinə mülkiyyət hüququ da dövlətə keçmiş olur. Özəl tərəfdaşın mənfəəti isə dövlət tərəfindən torpaq sahəsinin dəyərini də özündə cəmləşdirən müntəzəm ödənişlər hesabına formalaşır.

2) Sahiblik modeli (model İ). Özəl tərəfdaş layihə çərçivəsində maliyyələşdirmə və layihələndirmə işlərini reallaşdıraraq dövlət mülkiyyətində olan torpaq sahəsində və ya ərazidə, məsələn, daşınmaz əmlakın tikintisini həyata keçirir və ya nəqliyyat infrastrukturu qurur. Bu zaman özəl tərəfdaşın mənfəəti dövlət tərəfindən müntəzəm həyata keçirilən ödənişlər hesabına formalaşır.

3) Lizinq modeli (model L). Bu modelin tətbiqi zamanı podratçı (özəl tərəfdaş) nəinki tikinti işlərini həyata keçirir, həm də layihə obyektini idarə edir. Belə tərəfdaşlıq modelinin tətbiqi zamanı, adətən, müqavilə müddəti tamamlandıqda, layihə obyektini dövlətin satın alması hüququnun olması nəzərdə tutulur. Müqavilənin qüvvədə olduğu dövrdə dövlət tərəfindən podratçıya (özəl tərəfdaşa),

AUDİT 2024, 1 (43), səh. 49-63.
AUDIT 2024, 1 (43), pp. 49-63.
АУДИТ 2024, 1 (43), стр. 49-63.

müqavilə şərtlərinə uyğun olaraq, onun tikinti və amortizasiya xərclərini, eləcə də öncədən müəyyən edilmiş gəlir normasını qarşılayacaq müntəzəm lizinq ödənişləri edilir.

4) İcarə modeli (model M). Bu model bir öncəki L modelindən layihə obyektinin dövlət tərəfindən satın alınması hüququnun olmaması ilə fərqlənir. M modelinin tətbiqi zamanı əmlakın istismarı və obyektin idarə edilməsinə (o cümlədən, həyətin, kommunikasiyaların və sairənin idarə olunmasına) görə özəl tərəfdaşa dövlət tərəfindən müntəzəm icarə məbləğləri ödənilir.

5) Konsessiya modeli (model K). Bu modelin tətbiqi zamanı podratçı (özəl tərəfdaş) obyektin layihələndirilməsi, tikintisi və ya modernləşdirilməsi öhdəliyini öz üzərinə götürür və daha sonra həmin obyektin istifadəçilərinə (istehlakçılara) bir sıra xidmətlər təqdim edir. Bu zaman podratçının (özəl tərəfdaşın) mənfəəti istehlakçıların ona ödənişləri (giriş haqqı, gediş haqqı, dayanacaq haqqı, gömrük haqqı və s.) hesabına formalaşır. Bu zaman dövlət tərəfindən əlavə ödənişlərin edilməsi də nəzərdə tutula bilər.

6) Müştərək (birgə) müəssisə (model G). Bu dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqi layihə obyektinin tikintisi və istismarının dövlət və özəl tərəfdaş tərəfindən birgə həyata keçirilməsini nəzərdə tutur. Bu zamanı, bir qayda olaraq, digər modellərlə kombinasiyalardan da istifadə edilir [10].

Dövlət-özəl tərəfdaşlığı sahəsində beynəlxalq təcrübənin təhlili bu tərəfdaşlıq modeli üzrə ABŞ-da həyata keçirilən islahatların və əldə olunmuş nəticələrin maraq doğurduğunu ortaya qoydu, çünki ABŞ-da dövlət-özəl tərəfdaşlığı mexanizmləri daha çox bilavasitə ölkəmiz üçün də bu tərəfdaşlıq modelini aktuallaşdıran sahədə - nəqliyyat sistemində (xüsusilə də avtomobil nəqliyyatı infrastrukturunun qurulması istiqamətində) tətbiq edilir.

Dövlət-özəl tərəfdaşlığı üçün münbit mühit yaratmaq və bu tərəfdaşlıq əsnasında formalaşan münasibətləri stimullaşdırmaq məqsədilə ABŞ-da dövlət-özəl tərəfdaşlığı üzrə Milli Şura (The National Council for Public-Private Partnerships) yaradılmışdır. Bu şuranın tərkibinə həm dövlət, həm də özəl sektordan üzvlər daxil edilmiş və onun məqsədləri kimi aşağıdakılar müəy-yənləşdirilmişdir [11]:

– dövlət və özəl sektorun birgə fəaliyyətinin səmərəliliyini artırmaq məqsədilə təşviqat işləri həyata keçirmək;

– bu nov tərəfdaşlığın təbliğatı məqsədilə təlim proqramları tərtib edərək dövrü seminarlar keçirmək;

– layihə tərəfləri (dövlət və özəl sektor) arasında vasitəçilik funksiyaları yerinə yetirmək;

– beynəlxalq və regionaı dövlət-özəl tərəfdaşlığı layihələri icra etmək məqsədilə xarici tərəfdaşlarla kommunikasiya proseslərini təmin etmək.

Qardaş Türkiyə dövləti də dövlət-özəl tərəfdaşlığı layihələrinin icrasında zəngin təcrübəyə malikdir. İnkişaf etməkdə olan ölkələrdə reallaşdırılan dövlət-özəl tərəfdaşlığı layihələrinə dair Dünya Bankının 2022-ci il üzrə hesabatından görünür ki, Türkiyə bu mexanizm çərçivəsində icra edilmiş layihələrin sayına və dəyərinə görə dünya ölkələri sıralamasında ilk onluğa daxildir (şəkil 8).

**AUDİT 2024, 1 (43), səh. 49-63.**
**AUDIT 2024, 1 (43), pp. 49-63.**
**АУДИТ 2024, 1 (43), стр. 49-63.**




*Mənbə: (The World Bank, 2022b).*

***Şəkil 8. İnkişaf etməkdə olan ölkələrdə reallaşdırılmış dövlət-özəl tərəfdaşlığı layihələrinin sayı və dəyərlə ifadəsi (1990-2022-ci ilin ilk yarısı): sıralamada ilk 10 ölkə***

Şəkil 8-dən göründüyü kimi, Türkiyə 1990-2022-ci ilin ilk yarısı ərzində reallaşdırılmış dövlət-özəl tərəfdaşlığı layihələrinin sayı baxımından dünya üzrə sıralamada 6-cı, dəyəri baxımından isə 4-cü yerdə qərarlaşmışdır. Həmin dövrdə Türkiyədə ümumi dəyəri 156,1 milyard ABŞ dolları olan 260 dövlət-özəl tərəfdaşlığı layihəsi icra edilmişdir. Bu o anlama gəlir ki, bir layihəyə düşən orta məbləğ 600 milyon ABŞ dolları olmaqla Türkiyə inkişaf etməkdə olan ölkələr sırasında ən yüksək göstəriciyə sahibdir.

Türkiyədə 1990-2022-ci ilin ilk yarısı dövründə icra edilmiş dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində ən çox yatırım edilən iqtisadi sahə 39 layihəyə ümumilikdə 79,3 milyard ABŞ dolları investisiya qoyuluşu ilə nəqiyyat sektorudur. Nəqliyyat sektorunu 199 layihəyə ümumilikdə 66,1 milyard ABŞ dolları investisiya qoyuluşu ilə energetika sektoru izləmişdir. Dünya bankının məlumat bazasında öz əksini tapmasa belə, bu qurumun dövrü hesabatlarından məlum olur ki, xüsusilə son illərdə şəhər xəstəxanalarının tikintisi hesabına Türkiyədə tibb sektorunda icra edilmiş dövlət-özəl tərəfdaşlığı layihələrinin xüsusi çəkisi sürətlə artmaqdadır (The World Bank, 2022b).

Türkiyə Prezidenti yanında Strategiya və Büdcə Nazirliyinin (TCCSBB) məlumatlarına əsasən, 1986-2022-ci illərdə bu ölkədə icra edilmiş dövlət-özəl tərəfdaşlığı layihələrinin say, dəyər (ABŞ dolları) və əməliyyat dövründə gəlirlilik səviyyəsi göstəricilərinə görə iqtisadi sahələr üzrə bölgüsü cədvəl 1-də öz əksini tapmışdır [12].

***Cədvəl 1.***

**Türkiyədə 1986-2022-ci illər ərzində icra edilmiş dövlət-özəl tərəfdaşlığı layihələrinin iqtisadi sahələr üzrə bölgüsü.**

| İqtisadi sahə | Layihə sayı | Layihə dəyəri ($) | Əməliyyat dövründə gəlirlilik səviyyəsi ($) |
|---|---|---|---|
| Avtomobil yolları | 44 | 30.153.756.640,87 | 819.868.026,70 |
| Hava nəqliyyatı (aeroportlar) | 20 | 23.308.231.217,47 | 71.671.105.055,01 |
| Yaxta limanları və su turizmi | 20 | 1.456.957.540,07 | 3.086.517.412,41 |
| Dəmir yolları | 1 | 321.565.136,12 | 0 |
| Mədəniyyət və turizm sektoru | 1 | 336.637.290,38 | 0 |
| Gömrük | 23 | 680.109.224,88 | 8.783.413,30 |

AUDİT 2024, 1 (43), səh. 49-63.
AUDIT 2024, 1 (43), pp. 49-63.
АУДИТ 2024, 1 (43), стр. 49-63.

| | | | |
|---|---|---|---|
| Sənaye | 2 | 1.689.763.877,95 | 0 |
| Tibb | 18 | 12.683.866.577,98 | 0 |
| Energetika | 102 | 21.067.343.082,83 | 22.034.975.382,60 |
| Dəniz limanları | 24 | 2.444.159.861,02 | 3.154.966.795,69 |
| Mədən sənayesi | 8 | 0 | 296.964.574,69 |
| Bərk tullantıların emalı | 2 | 106.020.543,71 | 0 |
| **Cəmi:** | **265** | **94.248.410.993,28** | **101.073.180.660,40** |

*Mənbə: (TCCSBB, 2022).*

Dövlət-özəl tərəfdaşlığı sahəsində beynəlxalq təcrübənin təhlili baxımından postsovet ölkələri sırasında bu tərəfdaşlıq və maliyyələşmə mexanizmlərinin ən çox tətbiq edildiyi Rusiya Federasiyasının təcrübəsinin öyrənilməsi olduqca əhəmiyyətlidir. Belə ki, Rusiya Federasiyası da, ölkəmizdə olduğu kimi, 90-ci illərin əvvəllərində planlı iqtisadi sistemdən bazar sisteminə keçidə başlamış və təqribən 20 il ərzində bu keçidi bitirmiş ölkələrdəndir . Bu ölkənin nümunəsində dövlət-özəl tərəfdaşlığı modelinin təhlili ölkəmiz üçün həmin modelin gələcəkdə səmərəli tətbiqi nöqteyi-nəzərindən vacibdir.

Rusiya Federasiyasında institusional səviyyədə dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqinə 2008-ci ildə "Vneşekonombankın nəzdində dövlət-özəl tərəfdaşlığının inkişafı Mərkəzi"nin yaradılması ilə start verilmişdir. Bu mərkəzin əsas məqsədi dövlət-özəl tərəfdaşlığı layihələrinin işlənməsi və reallaşdırılması, həmçinin federal, regional və ayrı-ayrı şəhərlər səviyyəsində strateji inkişaf planlarına uyğun olaraq icra edilən dövlət-özəl tərəfdaşlığı layihələrinin təşkili və müşayiət edilməsi, dövlət və bələdiyyə orqanlarına dövlət-özəl tərəfdaşlığı üsul və metodlarının təkmilləşdirilməsinə dair dəstəyin göstərilməsidir. Qeyd edilən məqsədi təmin etmək üçün mərkəz dörd fərqli funksiya yerinə yetirir [13]:

1) informasiya təminatı;
2) normativ təminat;
3) dövlət və bələdiyyə kadr heyətinin təkrar hazırlğının təminatı;
4) dövlət-özəl tərəfdaşlığı münasibətlərinin iştirakçıları arasında kommunikasiyaların təşkili.

Rusiyada Federasiyasında icra edilmiş dövlət-özəl tərəfdaşlığı layihələrinin sayı ildən-ilə artmaqdadır. 2023-cü ilin 1 yanvar tarixinə Rusiya Federasiyasında reallaşdırılması müxtəlif mərhələlərdə olan 4098 müvafiq layihə olmuşdur. Cədvəl 2-də həmin layihələrin iqtisadi sahələr üzrə bölgüsü öz əksini tapmışdır.

*Cədvəl 2.*

**01.11 2023-cü il tarixə Rusiya Federasiyasında reallaşdırılması davam edən dövlət-özəl tərəfdaşlığı layihələrinin təsərrüfat sahələri üzrə bölgüsü**

| Təsərrüfat sahəsi | Layihələrin sayı | Layihələrin ümumi sayında xüsusi çəkisi, %-lə |
|---|---|---|
| Kommunal-energetika infrastrukturu | 3028 | 73,9 |
| Sosial infrastruktur | 680 | 16,6 |
| Nəqliyyat infrastrukturu | 168 | 4,1 |
| Abadlıq sektoru | 132 | 3,2 |
| İnformasiya sistemləri | 53 | 1,3 |
| Digər sahələr | 37 | 0,9 |
| Cəmi: | 4098 | 100,00 |

Cədvəl 2-nin məlumatları göstərir ki, Rusiya Federasiyasında reallaşdırılması davam edən dövlət-özəl tərəfdaşlığı layihələrinin əksəriyyəti (73,9%) kommunal-energetika sektorunun payına düşür (bu sektorda 3028 dövlət-özəl tərəfdaşlığı layihəsi reallaşdırılır). İkinci yerdə 16,6%-lə (680 layihə) sosial infrastruktur layihələri sıralanmaqdadır [13].

AUDİT 2024, 1 (43), səh. 49-63.
AUDIT 2024, 1 (43), pp. 49-63.
АУДИТ 2024, 1 (43), стр. 49-63.

## YEKUN

Artıq qeyd etdiyimiz kimi, Azərbaycan da, digər postsovet ölkələri kimi, 1990-cı illərdə inzibati-amirlik iqtisadi sistemindən bazar sisteminə keçidə başlamış və 20 illik dövrdə bu keçidi tamamlamışdır. Bununla belə, ölkəmizdə hələ də bir çox təsərrüfat sahələrinin fəaliyyətində dövlətin birbaşa iştirakı özünü göstərməkdə davam edir. Xüsusilə bu təsərrüfat sahələrinə ictimai infrastruktur, nəqliyyat və energetika sistemlərini nümunə göstərmək olar. Bunun obyektiv səbəbləri vardır ki, onların da əsasında həmin sahələrin özəl sektor üçün iqtisadi baxımdan maraqlı olmaması və ya dövlətimiz üçün strateji əhəmiyyət kəsb etməsidir. Bu sahələrin hazırda tam olaraq özəlləşdirilməsi qeyd edilən obyektiv səbəblərdən mümkün olmadığından, həmin sahələrdə daha səmərəli və optimal nəticələrin əldə edilməsinin digər alternativ həll yollarının tapılması xeyli aktuallaşmışdır. Bu alternativ həll yollarından biri də ölkəmizlə dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin tətbiqi hesabına göstərilən sahələrin dövlət büdcəsinə əlavə yük yaratmadan inkişaf etdirilməsinin təmin olunmasıdır. 2022-ci ildə qəbul edilmiş "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu həmin mexanizmlərin tətbiqinə birbaşa hüquqi imkanlar yatmışdır. Bununla belə, fikrimizcə, müvafiq mexanizmlərin və onlardan irəli gələn iqtisadi münasibətlərin ölkəmizdə inkişafını təmin etmək məqsədilə dövlət-özəl tərəfdaşlığı sahəsində dünya təcrübəsinin dərindən təhlil edilməsinə, eləcə də müxtəlif inkişaf etmiş və region ölkələrində bu modelin tətbiqinə elmi yanaşmaların tədqiqinə ehtiyac yaranmışdır. Məqalədə dövlət-özəl tərəfdaşlığının məqsədi və baza prinsipləri nəzərdən keçirilməklə inkişaf etmiş və region ölkələrində bu model tərəfdaşlığın tətbiqi formaları ətraflı təhlil olunmuşdur. Eyni zamanda, məqalədə öz əksini tapmış statistik məlumatların emalının nəticələri dövlət-özəl tərəfdaşlığı modelinin dünyanın bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrində strateji əhəmiyyətli ictimai və infrastruktur layihələrinin icrasında böyük əhəmiyyətə sahib olduğunu bir daha təsdiq edir. Fikrimizcə, bu təcrübənin ətraflı təhlili ölkəmizdə dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin tətbiqinin səmərəliliyini artırmaq və bu tərəfdaşlıq modelinin sürətli inkişafına təkan vermək imkanlarını müəyyənləşdirməyə zəmin yaradır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Румянцева А.А. Кластерная политика как стратегия регионального развития. М.: Издательский дом МИСиС, 2013. с. 235.
2. Абрамов О.К. Синтез определения термина «Реальный сектор экономики»: Реальный сектор, № 2, 2013. с. 11–12.
3. Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzi. Azərbaycanda Dövlət-özəl tərəfdaşlığı mühiti. Elektron resurs: https://www.pppdc.gov.az/az/page/azerbaycanda-dovlet-ozel-terefdasligi-muhiti.
4. European PPP Expertise Centre. EPEC – Library. Elektron resurs: https://www.eib.org/attachments/lucalli/20230009_epec_market_update_2022_en.pdf
5. Public-private partnerships financed by the European Investment Bank from 1990 to 2022.Elektron resurs: https://www.eib.org/attachments/lucalli/20230003_epec_ppp_financed_by_eib_1990_2022_en.pdf
6. Винницкая Н.Ю., Тимофеева Т.В. О принципах и критериях оценки ключевых проектов программ инновационного развития российских компаний с государственным участием. Инновации. № 7, 2018. с. 8-11.
7. Дмитриева Е.А. Государственно-частное партнерство как инструмент внебюджетного финансирования. Деньги и кредит. № 12, 2012. с. 29-33.
8. Гладов А.В., Исупов А.М., Мартышкин Д.В. и др. Зарубежный опыт реализации государственно-частного партнерства: общая характеристика и организационно-институциональные основы. Вестник СамГУ. № 7, 2008.
9. Левин И.Г., Поддержка государственно-частного партнерства – как это работает в Германии. Электронная юридическая система. URL: http://www.lexpro.ru/blogs/view/893

**AUDİT 2024, 1 (43), səh. 49-63.**
**AUDIT 2024, 1 (43), pp. 49-63.**
**АУДИТ 2024, 1 (43), стр. 49-63.**

10. Almaniyanın dövlət-özəl tərəfdaşlığı layihələrinin verilənləri - Projektdatenbank. Elektron resurs: https://www.ppp-projektdatenbank.de/index.php?id=31

11. Исхаков Р.Р. Государственно-частное партнерство в США, Германии и России. Федерализм. 2017.

12. Recep Emre ERİÇOK. Dünyada ve Türkiye'de Kamu-Özel İşbirliği Uygulamaları: Rakamsal Verilerle Bir Analiz. 2023.

13. Масимова Н.К., Кузнецова С.Б. Рынок проектов государственно-частного партнерства в Российской Федерации. Электронный научный журнал «Вектор экономики». 2023.

*Salim Yanvar Muslumov,*
*D.Sc. (Econ.), Professor,*
*Head of the Department of "Economics"*
*of the National Aviation Academy,*
*E-mail: smuslumov@naa.edu.az;*

*Fuad Murvat Mirzayev,*
*Ph.D. (Econ.)., Associate Professor*
*of the Department of "Management"*
*of the National Aviation Academy*
*E-mail: fmirzayev@naa.edu.az;*
*© S.Y. Muslumov, F.M. Mirzayev, 2024*

# PUBLIC-PRIVATE PARTNERSHIP AND ITS ROLE IN SOLVING SOCIO-ECONOMIC PROBLEMS: ANALYSIS OF GLOBAL EXPERIENCE

## A B S T R A C T

The economic reforms implemented in our country over the last two decades, along with changes in the structure of modern economic relations, have significantly altered the role of the state in these relations. Currently, there is a requirement for a contemporary economic conceptual system or approach that can precisely define the role, functions, and methods of the state in the economic processes created by various forms of ownership. The introduction of the public-private partnership model is one direction of these relations. The article analyses the public-private partnership model and its global application.

**The purpose of the research** is to investigate the scientific and methodological foundations of the public-private partnership model and conduct a statistical analysis of its global application.

**The methodology of the research** - analysis and synthesis, statistical, comparative, quantitative analysis.

**The practical importance of the research** - the public-private partnership model and its international application are analysed to determine the economic spheres in Azerbaijan where this model can be effectively applied.

**The results of the research** - definition of the essence of the public-private partnership model and a comparative analysis of its global application.

**The originality and scientific novelty of the research -** systematically presented mathematical and statistical analysis of the world experience in the application of the model of public-private partnership based on the analysis of research papers, originality and scientific novelty of the research are reflected in numerous sources.

**Keywords:** Public-Private Partnership (PPP), tender, privatisation, SEM, Partnerschaften Deutschland, The National Council for Public-Private Partnerships.

**AUDİT 2024, 1 (43), səh. 49-63.**
**AUDIT 2024, 1 (43), pp. 49-63.**
**АУДИТ 2024, 1 (43), стр. 49-63.**

*Муслимов Салим Январь оглы,*
*доктор экономических наук, профессор,*
*Заведующий кафедрой «Экономика»*
*Национальной Авиационной Академии*
*E-mail: smuslumov@naa.edu.az;*

*Мирзоев Фуад Мурват оглы,*
*доктор философии по экономике,*
*доцент кафедры «Менеджмент»*
*Национальной Авиационной Академии*
*E-mail: fmirzayev@naa.edu.az;*
*© Муслимов С.Я., Мирзоев Ф.М., 2024*

# ГОСУДАРСТВЕННО-ЧАСТНОЕ ПАРТНЕРСТВО И ЕГО РОЛЬ В РЕШЕНИИ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИХ ПРОБЛЕМ: АНАЛИЗ МИРОВОГО ОПЫТА

## Р Е З Ю М Е

Комплексные экономические реформы, проведенные в нашей стране за последние 20 лет, а также изменения в структуре современных экономических отношений привели к значительному изменению роли государства в этих отношениях. В настоящее время возникла необходимость в новой, современной системе концептуальных экономических отношений или подходах, которые могли бы более точно определить роль, функции и методы государства в экономических процессах, создаваемых вместе с различными формами собственности. Одним из направлений этих отношений является внедрение модели государственно-частного партнерства. Статья посвящена анализу сущности модели государственно-частного партнерства и мирового опыта применения данной модели. Статья посвящена анализу сущности модели государственно-частного партнерства и мирового опыта применения данной модели.

**Целью исследования** является исследование научно-методологических основ модели государственно-частного партнерства, и проведение статистического анализа мирового опыта применения данной модели.

**Методология исследования** – анализ и синтез, статистический, сравнительный, количественный анализ.

**Практическая значимость исследования** – анализ экономической значимости модели государственно-частного партнерства и мирового опыта ее применения может сыграть важную роль в определении экономических сфер в Азербайджане, где эта модель может быть эффективно применена.

**Результаты исследования** – определение сущность модели государственно-частного партнерства и сравнительный анализ мирового опыта ее применения.

**Оригинальность и научная новизна исследования** – систематизированно представлен математико-статистический анализ мирового опыта применения модели государственно-частного партнерства на основе анализа исследовательских работ, оригинальность и научная новизна исследования – отражены в многочисленных источниках.

**Ключевые слова:** государственно-частное партнерство, тендер, приватизация, SEM, Partnerschaften Deutschland, The National Council for Public-Private Partnerships.

*Məqalə redaksiyaya daxil olmuşdur: 26.12.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 24.01.2024*
*Çapa qəbul olunmuşdur: 26.02.2024*

*The date of the admission of the article to the editorial office: 26.12.2023*
*Send for reprocessing: 24.01.2024*
*Accepted for publication: 26.02.2024*

*Дата поступления статьи в редакцию: 26.12.2023*
*Отправлено на повторную обработку: 24.01.2024*
*Принято к печати: 26.02.2024*